# AZƏRBAYCAN RESPUBLİKASI MƏHKƏMƏ-HÜQUQ ŞURASI VƏ “FEMİDA KÖNÜLLÜLƏRİ” TƏŞKİLATI İCTİMAİ BİRLİYİ ARASINDA MƏHKƏMƏ-HÜQUQ SİSTEMİNDƏ KÖNÜLLÜLÜK FƏALİYYƏTİNİN TƏŞKİLİ HAQQINDA

## MEMORANDUM

### Ümumi müddəalar

Azərbaycan Respublikasının Məhkəmə-Hüquq və “Femida Könüllüləri Təşkilatı” ictimai birliyi Şurası (bundan sonra “Tərəflər” adlandırılacaq) mövcud olan əməkdaşlıq əlaqələrinə istinad edərək məhkəmə-hüquq sistemində gənclərin iştirakçılığının artırılması onların inkişaf etdirilməsi və məhkəmə-hüquq sisteminin ümumi inkişafına töhfə vermək məqsədilə, aşağıdakılar barədə razılığa gəldilər:

**1.** Tərəflər məhkəmə-hüquq sistemində gənclərin iştirakçılığının artırılması və gənc hüquqşünasların inkişafına dəstək üzrə faydalı əməkdaşlığı təşviq etmək, asanlaşdırmaq və inkişaf etdirmək üçün qanunvericiliyə uyğun olaraq əməkdaşlıq edəcəklər;
**2.** Bu Memorandum çərçivəsində həyata keçirilən fəaliyyətlər Tərəflərin əməkdaşlığı və hüquq bərabərliyi əsasında həyata keçiriləcəkdir.

### Məqsəd və əhatə dairəsi

**3.** Memorandumun məqsədi aşağıdakilardır:
**3.1.** Məhkəmə-hüquq sistemində gənclərin iştirakçılığının artırılması;
**3.2.** Gənc hüquqşünasların müasir əmək bazarına uyğunlaşdırılmasına dəstək;
**3.3.** Məhkəmə-hüquq sistemində həyata keçirilən islahatların təbliğinə dəstək;
**3.4.** Vətəndaşlar arasında hüquqi maarifləndirmə işinə dəstək.

### Əməkdaşlıq sahələri

**4.** Tərəflər aşağıdakı sahələrdə əməkdaşlıq edirlər:
**4.1.** məhkəmə-hüquq sistemində könüllülük fəaliyyətinin təşkil edilməsi;
**4.2.** gənc hüquqşünasların iştirakı ilə müxtəlif müsabiqələrin keçirilməsi;
**4.3.** birgə təlim, tədbir, seminarların keçirilməsi və onlarda iştirak etmək;
**4.4.** Memorandumun məqsədlərinə nail olmaq üçün digər tədbirlərin təşkili.

### Əməkdaşlığın formaları

**5.** Tərəflər arasında əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilir:
**5.1.** Tərəflərin səlahiyyətli şəxlərinin və digər rəsmi şəxslərinin görüşü;
**5.2.** əməkdaşlıq sahələri üzrə təcrübə mübadiləsi;
**5.3.** ümumi maraqlara xidmət edən müzakirə və məsləhətləşmələrin təşkil edilməsi;
**5.4.** birgə seminar, təlim və konfransların təşkili;
**5.5.** müxtəlif hüquqi sahələr üzrə təlimçi qrupların göndərilməsi;
**5.6.** Memorandumun məqsədlərinə nail olmaq üçün digər tədbirlərin təşkili.

### İşçi Qrup

**6.** Memorandumun məqsədlərinə nail olmaq üçün Tərəflər birgə İşçi Qrup yaradırlar.
**7.** İşçi Qrupun tərkibi Tərəflərin səlahiyyətli şəxsləri tərəfindən müəyyən edilir.
**8.** İşçi Qrup:
**8.1.** İcrası nəzərdə tutulan tədbir və digər məsələlərə dair illik əməkdaşlıq planlarını tərtib edir;

**8.2.** zərurət yarandıqda planlaşdırılmış tədbirlərin həyata keçirilməsi ilə bağlı maliyyə məsələlərini müəyyən edir.

**Məxfi məlumatların mühafizəsi**

**9.** Zərurət yaranarsa, Tərəflər Memorandumla müəyyən edilmiş sahələr üzrə məxfi məlumatları mübadilə edə bilərlər.
**10.** Tərəflər, qanunvericiliyin tələbinə uyğun olaraq, Memorandum çərçivəsində mübadilə edilmiş və ya yaradılmış məxfi məlumatı mühafizə etmək üçün zəruri tədbirlər görürlər.
**11.** Tərəflər, Memorandum ləğv olunduqdan sonra da mübadilə olunmuş məxfi məlumatın mühafizəsinə, eyni zamanda məxfilik qrifinin ləğv olunmasının qarşısının alınmasına cavabdehliyi davam etdirir.
**12.** Memorandum çərçivəsində mübadilə edilən məxfi məlumatın gözlənilməz açılması baş verərsə, bu vəziyyəti müəyyən edən Tərəf digər Tərəflərə dərhal məlumat verir.
**13.** Memorandum çərçivəsində mübadilə edilən məxfi məlumatın gözlənilmədən üçüncü şəxslərə ötürülməsi baş verərsə, Tərəflər dərhal bir birlərinə məlumat verir.

**Maliyyə məsələləri**

**14.** Tərəflərin səlahiyyətli orqanları tərəfindən başqa cür razılaşdırılmadığı təqdirdə, Tərəflər Memorandumun müddəalarının həyata keçirilməsi ilə bağlı xərcləri özləri ödəyirlər.

**Fikir ayrılıqlarının həlli**

**15.** Memorandumun tətbiqi və ya təfsiri ilə bağlı yaranan hər hansı fikir ayrılıqları Tərəflər arasında məsləhətləşmələr və/və ya danışıqlar yolu ilə həll edilir, həlli üçün hər hansı milli və ya beynəlxalq məhkəməyə və ya üçüncü tərəfə müraciət edilmir.

**Dəyişikliklər**

**16.** Memoranduma Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında istənilən dəyişikliklər edilə bilər.
**17.** Dəyişikliklər Memorandumun ayrılmaz tərkib hissəsi olan ayrıca sənədlər formasında rəsmiləşdirilir və Memorandumun müvafiq müddəalarına uyğun olaraq qüvvəyə minir.

**Qüvvəyəminmə, müddət və ləğvedilmə**

**18.** Memorandum 5 (beş) il müddətinə bağlanılır və Tərəflərin imzalandığı gündən qüvvəyə minir.
**19.** Əgər Memorandumun müddətinin bitməsinə ən azı 6 (altı) ay qalmış Tərəflərdən biri digər Tərəfi onu ləğv etmək niyyəti barədə yazılı şəkildə məlumatlandırmazsa, Anlaşma Memorandumu avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.
**20.** Bu Anlaşma Memorandumu Bakı şəhərində, 2024-cü il "25" yanvar tarixində, Azərbaycan dilində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası adından** | **"Femida Könüllüləri" Təşkilatı İctimai Birliyi adından** |
| *(imza)* | *(imza)* |